**Zeynalova Q.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.70-79**
**UOT: 342.9**

# İnzibati tənbehin hüquqi kateqoriya kimi səciyyələndirilməsi və onun sistematikası

**Xülasə:** Məqalədə inzibati tənbehin hüquqi kateqoriya kimi səciyyələndirilməsi və onun sistematikası bağlı məsələlər araşdırılırmışdır. İnzibati tənbehin anlayışı, tətbiqi qaydaları, tətbiqi məqsədləri barədə fikirlər qeyd edilmişdir. Təhlil və müqayisələrin nəticələri qeyd edilib.

**Açar sözlər:** inzibati tənbeh; inzibati xəta; inzibati məsuliyyət; inzibati cərimə; İnzibati Xətalar Məcəlləsi; fiziki şəxs; hüquqi şəxs.

İnzibati tənbeh, inzibati xəta törədilməsinə görə tətbiq edilən inzibati məsuliyyət tədbiridir. İnzibati tənbehlər, elə məcburetmə tədbirləri kimi tanınır ki, onlar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulsun [4, s. 245]. İXM-in digər bölmələrində nəzərdə tutulmuş və inzibati xətalarla bağlı olan inzibati məcburetmə tədbirləri ( məsələn, inzibati qaydada tutma, şəxsi axtarış, sənədlərin götürülməsi və s.) inzibati tənbeh sayılmır. Bunlar inzibati-prosessual məcburetmə tədbirləri kimi xarakterizə olunur və onların tətbiqi inzibati məsuliyyətin meydana çıxmasına rəvac vermir.

Azərbaycan Respublikası İXM-nin 21-ci maddəsinin mövqeyindən çıxış edərək qeyd etmək olar ki, inzibati tənbeh məsuliyyət tədbiridir və inzibati xəta kimi qeyri-hüquqi əməli törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxsi, həm də başqa şəxsləri yeni inzibati xəta törətməkdən çəkindirmək məqsədi daşıyır.

Türkiyənin doktrinal mənbələrində inzibati tənbeh sosial nizam, ümumi əxlaq, ümumi sağlamlıq, ətraf mühit və iqtisadi sabitlik, həmçinin də asayişi qorumaq üçün cəzalandırılan hərəkətə qarşı cavab tədbiri kimi şərh edilir [10, s. 134].

İnzibati tənbeh, qanun və ya qaydaların tələblərinə, Nazirlik səlahiyyətlisi tərəfindən verilmiş bir əmrə və ya icazə tələbinə (icazə, lisenziya, təsdiq və s.) əməl etməyən şəxslərə və ya şirkətlərə tətbiq edilə bilən məcburiyyət tədbiridir [16].

İnzibati xətalara qarşı mübarizədə inzibati tənbehlərin tətbiq edilməsi zəruri olsa da, köməkçi vasitədir. Dövlətin inzibati tənbehləri tətbiq etməkdə əsas məramı inandırmanı və məcburetməni uyğunlaşdırmaqdır. İnzibati tənbehin ikili xüsusiyyətə malik olması da məhz bu mövqedən meydana gəlir. Belə ki, inzibati tənbeh təkcə dövlətin hüquqpozucularına qarşı istifadə etdiyi məcburetmə prosesinin bir vasitəsi deyil, eyni zamanda tərbiyəedici xarakterə malik ünsürdür [17, s. 276].

Bəşər inkişafının obyektiv qanunları ictimai münasibətlərin daha məqsədəuyğun quruluşunu ümumi halda müəyyənləşdirir. Məhz bu qanunların cəmiyyətə diktə etməsi ilə cəmiyyətin

♦ **Zeynalova Qəndab Mikayıl qızı** - Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının magistrantı (Azərbaycan). E-mail:qendabzeynalli8@gmail.com

fərdlərinin mövcud inkişaf səviyyəsinə uyğun olaraq müəyyən obyektiv şəraitdə insanların necə hərəkət etməli olduğunu göstərir.

Ayrı-ayrı fərdlərin cəmiyyətdə təşəkkül tapmış ictimai münasibətlərə qəsd etməsinin məntiqi nəticəsi kimi meydana çıxan hüquq pozuntuları, eləcə də inzibati xətaların vəziyyəti cəmiyyətin güzgüsü rolunu oynayır. Dövlət, məhz bu qeyri-hüquqi əməllərin qarşısını almaq üçün inandırma və məcburetmə vasitələrindən istifadə etmək zərurəti ilə üzləşir. İnandırma vasitəsinin ən effektiv təzahür formalarından biri kimi hüquqi qanunlar çıxış edir, hansı ki, bu normalar qanunverici hakimiyyətin verdiyi, dərk edilmiş obyektiv qanunlara müvafiq olaraq insanların necə hərəkət etməli olduqlarını müəyyən edən normalardır [8, s. 227]. Bu qanunlar nəzərdə tutduğu müddəalardan hər hansısa istisnaya yol vermir. Lakin, subyektiv fəaliyyətin məhsulu olan qanunlar onlarda nəzərdə tutulmuş tələblərin pozulması ehtimalına yol verir. Bu mənada obyektiv hüquq ictimai həyatın obyektiv qanunauyğunluqlarının inikası olsa belə, fərdi maraqların bütün çalarlarını əvvəlcədən nəzərə ala bilməz. Digər tərəfdən dövlətin qoruduğu ümumi davranış qaydaları ilə hesablaşmayan şəxslərə gəldikdə isə, obyektiv hüquq belə şəxslərin tələblərini nəinki nəzərə ala bilməz, hətta bu cür yolla onların qanuna zidd olan əməllərinin qarşısını almalıdır.

Hüquq normalarının pozulmasının mümkünlüyü insan həyatının öz varlığına xas olduğu üçün dövlət öz məcburetmə qüvvəsi ilə hüquq normalarının mühafizəsini və qeyd-şərtsiz realizsəini təmin etməyə məcburdur. Dövlətin qanunvericilik ehtiyatında normalar vardır ki, onlar, davranışı hüquq normalarının tələbləri ilə uzlaşmayan fərdlərin məsuliyyətini ehtiva edir [6, s. 217].

İnizibati tənbehlərinin tətbiqinə zərurət yaradan əsas məhz hüququn pozulmasıdır. Hüquq pozuntusu- hüquq və fəaliyyət qabiliyyətli fərdin hüquq normalarının tələblərinə zidd olan, başqa şəxslərə zərər vuran və hüquq məsuliyyətinə səbəb olan təqsirli davranışıdır. Hüquq pozuntusu özündə bir neçə əlaməti ehtiva edir:

1) Hüquq pozuntusu insanın hərəkət və ya hərəkətsizliyində ifadə olunan davranışdır. Hərəkətsizlik o halda hüquq pozuntusu sayılır ki, insan hüquq pozuntusunda nəzərdə tutulmuş müəyyən hərəkətləri etməli olduğu halda etməmişdir.

2) Hüquq pozuntusu insanın maddi və ya prosessual hüquq normasında nəzərdə tutulmuş tələblərə zidd olan davranışıdır. Buna görə də hüquq pozuntusunu hüquqla zidd davranış adlandırmaq olar.

3) Hüquq pozuntusunun meydana çıxması üçün şəxsin əməlində təqsir ünsürünün olması mütləqdir. Yəni, qeyri-hüquqi əməli törədən şəxs həmin əmələ iradi olaraq yanaşsın və öz hərəkətinə rəhbərlik etsin. Hüquqi kateqoriya kimi təqsir dedikdə, hüququ pozan şəxsin öz davranışına olan psixi münasibəti başa düşülür.

4) Hüquq pozuntusu cəmiyyətə, dövlətə, vətəndaşlara zərər yetirən davranışdır. Hüquq pozuntuları ictimai həyatın müxtəlif tərəflərinə yönəlir. Onlar, vətəndaşların siyasi, əmək, əmlak, şəxsi hüquq və azadlıqlarına, təşkilatların iqtisadi mənafelərinə qarşı zərər vurur və bütün bu hüquq pozuntuları cəmiyyə üçün zərərli olduğu, vətəndaşların və təşkilatların mənafelərinə toxunduğu üçün dövlət tərəfindən qadağan edilir.

5) Hüquq pozuntuları baş verdikdə hüquq pozuntusuna qarşı dövlət tərəfindən məcburi təsir tədbirləri tətbiq edilir. Hansı ki, inzibati tənbeh də məhz bu cür təsiretmə tədbirlərindən biridir və inzibati xətaları törədən şəxslərin məsuliyyətə alınması üçün effektiv mübarizə tədbiridir.

Hüquq nəzəriyyəsində əməlin hüquq pozuntusu kimi səciyyələnməsi üçün bir neçə ünsürün mövcudluğu mütləq xarakter daşıyır [11, s. 176]. Digər hüquq pozuntuları kimi, inzibati xətalar da törədilən zaman bu əməl müəyyən ictimai münasibətlərə təsir edir. Hansı ki, bu hüquq

münasibətləri hüquq pozuntusunun obyekt ünsürünü təşkil edir. Dövlətin hüquq pozuntusuna qarşı mübarizə siyasətinin əsasında dayanan başlıca qayə ondan ibarətdir ki, cəmiyyətdə mövcud olan ictimai münasibətləri hüquq normaları ilə nizama salsın və qorusun. Məhz, bu məqsədin realizəsinin effektiv vasitəsi kimi istifadə olunan məsuliyyət tədbirlərindən biri də inzibati tənbehdir.

Hüquq pozuntusunun subyekti hüquq və fəaliyyət qabiliyyətli, eyni zamanda delikt qabiliyyətli ( lat. "delictum"- hüquq pozuntusu deməkdir) fiziki və hüquqi şəxslər ola bilər.

Hüquq pozuntusu tərkibinin obyektiv ünsürünə subyektin əməlinin hüquqazidd və ictimai təhlükəli olması daxildir. Subyektiv ünsür dedikdə isə hüquqazidd əmələ görə hüquq pozuntusu törədənin təqsiri olduğu halda məsuliyyəti nəzərdə tutulur. Yəni, hüquq pozuntusu məhz bu ünsürlərlə birgə inzibati xəta kimi səciyyələnə bilər və inzibati tənbeh tətbiq edilən zaman bütün bu ünsürlərin mövcudluğu nəzərə alınmalıdır [13, s. 217].

Əvvəldə də qeyd etdiyimiz kimi, inzibati tənbeh məsuliyyət tədbiridir. Hüquq məsuliyyəti şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafelərinin müdafiəsinin mühüm vasitəsidir. O, hüquq normalarında nəzərdə tutulmuş hüquqauyğun davranış modelinə zidd əməl törədildikdə bu əməlin subyektinə qarşı dövlət məcburiyyəti tədbirlərinin tətbiqi şəklində ifadə olunur. Hüquq məsuliyyətinin əsas əlaməti onun yalnız dövlət tərəfindən müəyyən olunmasında və səlahiyyətli orqanlar tərəfindən tətbiq edilməsindədir.

İnsan hüquq və azadlıqları vasitəsilə şəxsiyyət cəmiyyətdə müəyyən davranış imkanına azadlığa malik olur. Dövlətin hüquq və azadlıqlara münasibət bildirməsi onun insan müstəqiliyyinə birbaşa münasibəti deməkdir [5, s. 102].

Hüquq pozuntusunu törədən şəxs üçün hüquq məsuliyyəti ona qarşı hüquq normaları sanksiyalarının, onlarda əks olunmuş müəyyən məsuliyyət tədbirlərinin tətbiqidir. Hüquq normaları əsasında səlahiyyətli orqanlar tərəfindən tətbiq edilən dövlət məcburiyyət tədbirlərinə məruz qalmaq hüquq pozuntusunu törədən şəxsin vəzifəsidir.

Hüquq məsuliyyəti mürəkkəb ictimai hadisədir. Bu hadisənin ən azı 2 tərəfi olur: cəmiyyətdə mövcud olan hüquq münasibətlərini hüquq normalarının vasitəsi ilə mühafizə edən dövlət və hüquq pozuntusunun subyekti qismində fiziki və hüquqi şəxslər. Onların arasında hüquq mühafizə münasibəti formalaşır ki, bu münasibətlərdə dövlət öz səlahiyyətli subyektlərinin simasında səlahiyyətli tərəf, hüquq pozuntusunu törədən şəxs isə həmin hüquqazidd əməli törətdiyinə görə məsuliyyət ilə yüklü edilir. Həm səlahiyyətli, həm də hüquq pozunstusunu törədən tərəf qanun çərçivəsində hərəkət edir və hüquq məsuliyyətinin realizəsi hüquq əsasında, məhz bu hüquq pozuntusuna görə məsuliyyəti nəzərdə tutan hüquq normalarının sanksiyaları əsasında həyata keçirilir.

Hüquqi məsuliyyət tədbiri kimi inzibati tənbehin tətbiqi müəyyən məqsədlərə xidmət edir. İnzibati tənbeh hüquq pozusuna təsir göstərir, onu növbəti hüquq pozuntusu törətməkdən çəkindirir. İnzibati tənbehlərin köməyi ilə inzibati xətaların ümumi və fərdi profilaktika məqsədləri həyata keçirilirlər: fərdi xəbərdarlıq - ondan ibarətdir ki, inzibati tənbeh konkret hüquqpozana təsir göstərir, onu gələcəkdə hüquqpozmanı törətməməyə vadar edir; ümumi xəbərdarlıq - onunla xarakterizə olunur ki, o, təkcə hüquqpozanın özünün tərbiyələndirilməsinə səbəb olmur, eyni zamanda digər şəxsləri də hüquqazidd əməldən çəkindirir. Ümumən, inzibati tənbehlərin tətbiq edilməsi bu məqsədlərə xidmət edir:

- İnzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək;
- İnzibati xəta törətmiş şəxs tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq;

- Başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq üçün preventiv vasitə kimi çıxış etmək.

Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 3.1-ci maddəsinə görə inzibati tənbeh inzibati xəta törədildiyinə görə dövlət tərəfindən müəyyən edilmiş məsuliyyət tədbiridir və həm inzibati xəta törədənin özü, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq üçün istifadə olunur [21].

İnzibati tənbeh həm törədilmiş inzibati xətaya, həm də inzibati xəta törədən şəxsə qarşı olan "mənfi" münasibətin nəticəsidir [20, s. 374]. İnzibati xətaların qarşısının alınmasında inzibati tənbehlərin tətbiq edilmsəi əsas deyil, köməkçi bir vasitədir. İnzibati tənbehlər tətbiq edilərkən inandırma və məcburetmə metodları uzlaşdırılır. Mahiyyət baxımından inzibati tənbehlər inzibati məcburetmə tədbirləri olmaqla yanaşı, eyni zamanda tərbiyəedici  xarakterə də malikdir.

İnzibati tənbehlərin məzmunu inzibati xəta törətmiş şəxsin subyektiv hüquqlarının və maddi mənafelərinin məhdudlaşdırılmasından və bu məhdudlaşdırma vasitəsi ilə hüquqpozucularını yeni inzibati xətaları törətməkdən çəkindirməkdən ibarətdir [18, s. 442].

Bu məhrumetmə və çəkindirmə tədbiri müxtəlif formalarda təzahür edir: inzibati həbsi tətbiq etməklə inzibati xətanı törətmiş şəxsin azadlığını qısa müddətdə məhdudlaşdırmaqla, cərimə və inizibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi isə maddi itkilərlə bağlıdır. İnzibati tənbehlər onunla xarakterizə olunur ki, onlar dövlət orqanlarının və vəzifəli şəxslərin geniş dairəsi tərəfindən tətbiq edilir [4, s. 243]. Bu zaman inzibati tənbehlər həm təkbaşına, həm də kollegial qaydada tətbiq olunur. Bu tədbirlərin vasitəsi ilə inzibati tənbeh tətbiq edən subyektlər- rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan), müvafiq mərkəzi icra hakimiyyəti orqanları və s. səlahiyyətli orqanlar inzibati xəta törətmiş şəxsin arzusundan asılı olmayaraq, onun şəxsi və əmlak hüquqlarını qanunvericiliklə müəyyən olunan dərəcədə məhdudlaşdırır.

RF-in İXM-nə görə inzibati tənbeh, inzibati xəta törətmiş fiziki şəxsin insan ləyaqətinin alçaldılmasına və ya ona fiziki əzab verməyə, habelə hüquqi şəxsin işgüzar nüfuzuna xələl gətirməyə yönəldilə bilməz [22, s. 451].

İnzibati tənbehin tətbiq edilməsinin ən mühüm əsaslarından biri də inzibati məsuliyyət müəyyən edən və inzibati xəta törətmiş şəxsin tənbeh edilməsini nəzərdə tutan normaların yalnız Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə daxil edildikdən sonra tətbiq edilməsidir.

İnzibati tənbehlər səlahiyyətli orqanlar və vəzifəli şəxslər tərəfindən xüsusi fərdi idarəetmə aktları qəbul etmə yolu ilə tətbiq edilir. Təqsirkarlar törətdikləri xətaya (əmələ) görə cəzalandırılırlar. Məcburetmə tədbiri ədalətli olmalı, əməlin xarakterinə və hüquqpozanın şəxsiyyətinə müvafiq olmalıdır. Onun ağırlığı əməlin (xətanın) "ağırlığından" asılıdır [15, s. 514]. Tənbehlər hüquq qaydasını yanakı üsulla müdafiə edir, onlar bilavasitə vəzifələrin yerinə yetirilməsini təmin edə bilmirlər, lakin əlavə "cərimələmə" vəzifələri müəyyən edərək və vətəndaşın hüquqi sahəsini məhdudlaşdıraraq, şəxsi gələcəkdə qanunu pozmamağa məcbur edir və gələcəkdə nümunəvi davranmağı həvəsləndirir.

İnzibati tənbehlər müxtəlif xüsusiyyətlərə malikdir. Bu müxtəliflik əsasında səlahiyyətli orqanlar tərəfindən inzibati xəta törədən şəxsə qarşı hüquq pozuntusunun xarakterini, törədənin şəxsiyyətini nəzərə alaraq müvafiq tənbeh növünü tətbiq edirlər. Azərbaycan Respublikası İnzibati Xətalar qanunvericiliyində inzibati tənbehlərin əsas və əlavə növləri göstərilmişdir.

Qanunvericiliklə nəzərdə tutulmuş inzibati məsuliyyət tədbirləri çox müxtəlifdir. Bu da müxtəlif inzibati xətaların xarakterini və hüquqpozanın şəxsiyyətini nəzərə almaqla reaksiya verməyə imkan yaradır [3, s. 244].

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 22-ci maddəsi inzibati tənbehlərin sistematik bölgüsünün hüquqi əsası qismində çıxış edir. Belə ki, inzibati tənbehlər xarakterinə və tətbiq olunacaq subyektlərin dairəsinə görə sistemə salınmışdır.

İnzibati xəta qismində hüquqpozuntusuna adekvat cavab təddbiri kimi məhz aşağıdakı inzibati tənbeh növləri müəyyən edilmişdir:

-Xəbərdarlıq;

-İnzibati cərimə;

-İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi;

-Fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması;

-Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma;

-İctimai işlər;

-İnzibati həbs.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində inzibati xətaların əsas və əlavə növləri təsbit edilmişdir. Yalnız əsas inzibati tənbeh növləri kimi tətbiq edilən tədbirlərə xəbərdarlıq, inzibati cərimə, ictimai işlər və inzibati həbs daxildir.

İnzibati xətanın törədilməsində alət və ya inzibai xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması, Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma həm əsas, həm də əlavə inzibati tənbeh növləri kimi tətbiq edilə bilər [1].

Bir inzibati xəta əməlinə görə inzibati xəta törətmiş şəxs barəsində yalnız əsas tənbeh və ya həm əsas, həm də əlavə tənbeh növü tətbiq edilə bilər. İnzibati xətanın törədilməsinə görə əsas tənbeh növlərinin qanunvericilikdə müəyyən edilən növlərindən yalnız biri tətbiq edilə bilər. İki əsas tənbeh növünün inzibati xəta törətmiş şəxs barəsində eyni zamanda tətbiq edilməsinə qanunvericiliklə yol verilmir. Yəni, inzibati xəta törətmiş şəxs barəsində həm inzibati həbs, həm də ictimai işlər tətbiq etmək qanunla qadağandır.

Digər yanaşmaya görə inzibati tənbehlər mütləq, nisbi müəyyən və alternativ fotmalarda maddi hüquq normalarında ifadə olunur [7, s. 94].

İnzibati xəta ilə əlaqədar sanksiya alternativ kimi göstərilən hallarda ( məsələn: İXM-in 528.1-ci maddəsinin sanksiyası "....fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur") inzibati xəta haqqında işə baxan səlahiyyətli subyekt işin hallarına və inzibati xəta törədənin şəxsiyyətini nəzərə alaraq əsas tənbeh növlərindən hansını tətbiq etməyi, eyni zamanda əsas tənbehdən savayı əlavə tənbeh növünü tətbiq edib-etməməyi müəyyən edir. Əgər xüsusi hissənin müvafiq maddəsinin sanksiyasında əlavə tənbeh növünün tətbiq edilməsi imperativ norma kimi müəyyən edilibsə, səlahiyyətli subyekt onu tətbiq etməkdən yayına bilməz (məsələn: İnzibati xətalar Məcəlləsinin 571-ci maddəsinin sanksiyası "gəmi və ya digər üzən vasitə müsadirə edilməklə və ya edilməməklə fiziki şəxslər iki yüz əlli manatdan üç yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz əlli manatdan altı yüz əlli manatadək məbləğdə cərimə edilir").

İnzibati tənbehlər səlahiyyətli orqanlar və vəzifəli şəxslər tərəfindən xüsusi fərdi idarəetmə aktları qəbul etmə yolu ilə tətbiq edilir. Təqsirkarlar törətdikləri xətaya (əmələ) görə

cəzalandırılırlar. Məcburetmə tədbiri ədalətli olmalı, əməlin xarakterinə və hüquqpozanın şəxsiyyətinə müvafiq olmalıdır. Onun ağırlığı əməlin (xətanın) "ağırlığından" asılıdır [2, s. 692].

RF İXM-in 3.2-ci maddəsinə görə inzibati xəta törətməyə görə aşağıdakı inzibati tənbeh tədbirləri müəyyən edilə və tətbiq edilə bilər [21]:

1) xəbərdarlıq;

2) inzibati cərimə;

3) inzibati xətanın törədilməsində istifadə olunan alət və ya predmetinin müsadirə edilməsi;

4) bir şəxsə verilmiş xüsusi hüquqdan məhrumetmə;

5) inzibati həbs;

6) xarici vətəndaşın və ya vətəndaşlığı olmayan şəxsin Rusiya Federasiyasından inzibati qaydada çıxarılması;

7) diskvalifikasiya;

8) fəaliyyətin inzibati dayandırılması;

10) məcburi iş;

11) keçirildiyi günlərdə rəsmi idman yarışlarının keçirildiyi yerlərə getməyin inzibati qadağası.

Hüquqi şəxsə münasibətdə, bu tənbehlərin 1-4, 9-cu bəndlərində sadalanan inzibati tənbehlər tətbiq edilə bilər.

Çin Xalq Respublikasının İnzibati Xətalar Məcəlləsinin 8-ci maddəsinə görə inzibati xətalara görə aşağıdakı inzibati tənbeh tədbirləri nəzərdə tutulub:

1) inzibati xəbərdarlıq; 2) cərimə; 3) qanunsuz qazancların müsadirə edilməsi və ya qanunsuz əmlakın və ya dəyərli əşyaların müsadirə edilməsi; 4) istehsalın və ya işin dayandırılması barədə əmr; 5) icazənin müvəqqəti dayandırılması və ya ləğvi və ya lisenziyanın müvəqqəti dayandırılması və ya ləğvi; 6) inzibati həbs və qanunlar və inzibati qaydalar və nizamnamələrlə müəyyən edilmiş digərləri [19].

Türkiyə İnzibati Xətalar Qanununa görə, inzibati xətalara görə inzibati cərimə və digər inzibati tənbeh tədbirləri tətbiq edilir. İdarəetmə tədbirləri, əmlakın xalqa verilməsi və müvafiq qanunlara daxil edilmiş digər tədbirlərdir. İnzibati cərimələr sabit və ya nisbi ola bilər [9, s. 411].

İnzibati cərimə qanunda aşağı və yuxarı hədlər göstərilməklə də müəyyən edilə bilər. Bu vəziyyətdə inzibati xəta törədən şəxsin maddi vəziyyəti və təqsirliliyi ədalətlilik naminə nəzərə alınır. Dövlət idarələri tərəfindən verilən inzibati pul cərimələri 01.06.2005-ci il tarixindən sonra müvafiq qanunlarda müəyyən edilmiş nisbətdən kənar hissəsi ilə Baş prokurorluqlar və məhkəmələr tərəfindən tətbiq edilən inzibati cərimələr ümumi büdcəyə gəlir kimi yazılır. Sosial təminat qurumları və yerli idarələr tərəfindən tətbiq edilən inzibati cərimələr öz büdcələrində gəlir kimi qeyd olunur. Digər dövlət qurum və təşkilatları tərəfindən tətbiq edilən inzibati cərimələr əlaqədar qanunlardakı müddəalar gizli qalmaq şərtiylə ümumi büdcəyə gəlir kimi əlavə olunur [12].

Şəxsin iqtisadi vəziyyəti uyğun deyilsə, birinci hissənin əvvəlcədən ödənilməsi şərtilə inzibati cəriməni bir il ərzində dörd bərabər hissədə ödəməyə qərar verilə bilər. Ödənişlər vaxtında və tam ödənilmədiyi təqdirdə, inzibati cərimənin qalan hissəsi alınır [14, s. 615]. İnzibati cərimə tam ödənildikdən sonra ən geci bir ay müddətində aidiyyəti dövlət qurumuna bildirilir.

Xətaya görə inzibati cərimələri tətbiq edən dövlət məmuru, aidiyyəti şəxsin razılığı ilə dərhal onu yığır. Qanuni vasitələrə müraciət etməzdən əvvəl inzibati cərimə ödəyən şəxsdən bunun dörddə üçü tutulur. Avans ödəməsi fərdin bu qərardan apellyasiya şikayəti vermək hüququna təsir etmir.

İnzibati xətanın predmeti olan və ya işlənmə yolu ilə əldə edilən əmlakın mülkiyyət hüququnun ictimaiyyətə ötürülməsi yalnız qanunda açıq bir müddəanın olduğu hallarda həll edilə bilər.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46960 (müraciət tarixi: 18.01.2022).

2. Abdullayev A., Nağıyev F. İnzibati hüquq: Dərslik. Bakı: Qanun, 2008. - 800 s.

3. Abdullayev Abduləli. İnzibati hüquq ( I-II-ci hissə): Dərs vəsaiti. Bakı: Qanun, 2005. -376 s.

4. Əliyev S.F. İnzibati hüquq: Dərslik. Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC, 2019. - 726 s.

5. Əsgərov Z.A. Konstitusiya hüququ: Dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. -760 s.

6. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Maarif nəşriyyatı, 1988. - 383 s.

7. Nəcəfquliyev R.İ., İnzibati hüquq: Dərslik. Bakı: Ecoprint, 2018. - 568 s.

8. Xrapanyuk V.N. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: MBM, 2009. - 247 s.

9. Derdiman Cengiz. İdare Hukuku. Alfa Aktuel Yayinlari, Ders Kitaplari, 2010. - 598 s.

10. Gözler Kemal. Ramazan Çağlayanın İdare Hukuku ve İdari Yargılama Hukuku İsimli Kitabı hakkınta eleştiriler. Bursa: Star Ajans LTD, 2013. - 190 s.

11. H.Hatemi, Medeni Hukuka Giriş, İstanbul, 2018. - 212 s.

12. Kabahatler Kanunu. [Elektron resurs]. URL: https://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.5326.pdf (müraciət tarixi: 14.01.2022)

13. Kemal Gözler. Hukuka Giriş. Bursa, 2020. - 540 s.

14. Nohutçu Ahmet. İdare Hukuku – Ahmet Nohutçu ( Altın Seri). Ankara: Yayınevi: Savaş, 2016. - 1216 s.

15. Türk idare hukuku. Seçkin Yayıncılık, 2011. - 663 s.

16. Administrative Penalty Regulation. [Elektron resurs]. URL: https://www2.gov.bc.ca/assets/gov/environment/research-monitoring-and-reporting/reporting/reporting-documents/environmental-enforcement-docs/administrative_penalty_facts_sheet.pdf (müraciət tarixi: 14.01.2022).

17. Cane Peter. Administrative Law. Clarendon Law Series. Oxford University Press; 6 edition, 2016. - 495 p.

18. Endicott Timothy. Admiistrative Law. Oxford University Press; 3 edition, 2015. - 712 p.

19. Law of the People's Republic of China on Administrative Penalty. [Elektron resurs]. URL: http://www.asianlii.org/cn/legis/cen/laws/apl269/ (müraciət tarixi: 16.01.2022).

20. Административное право России: учебник. 2-е изд., перераб. и доп. /Отв. ред. Л.Л.Попов. М.: Проспект, 2015. - 560 с.

21. Кодекс Российской Федерации об Административных Правонарушениях. [Elektron resurs]. URL: http://www.consultant.ru/document/cons_doc_LAW_34661/ (müraciət tarixi: 16.01.2022).

22. Конин Н.М., Маморуна Е.И. Административное право: учебник. М.: Издательство Юрайт, 2015. - 574 с.

**Zeynalova G.M.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.70-79**
**UDC: 342.9**

## Characterization of administrative penalty as a legal category and its systematics

**Abstract:** The article examines issues related to the characterization of administrative sanctions as a legal category of administrative sanctions and its systematization. Opinions on the concept of administrative penalty, rules of application, purposes of application were noted. The results of the analysis and comparisons were noted.

**Keywords:** administrative penalty; administrative offense; administrative liability; administrative fine; Code of Administrative Offenses; individual; legal entity.

### References

1. Code of Administrative Offenses of the Republic of Azerbaijan. Available at: http://e-qanun.az/framework/46960 (accessed: 18.01.2022) (in Azerbaijani).
2. Abdullayev A., Nagiyev F. Administrative Law. Textbook. Baku, Qanun Publ., 2008, 800 p. (in Azerbaijani).
3. Abdullayev A. Administrative Law (1 and 2 parts). Teaching aid. Baku, Qanun Publ., 2005, 376 p. (in Azerbaijani).
4. Aliyev S.F. Administrative Law. Textbook. Baku, Leman Poliqrafiya Publ., 2019, 726 p. (in Azerbaijani).
5. Asgerov Z.A. Constitutional Law. Textbook. Baku, Baku University Publ., 2011, 760 p. (in Azerbaijani).
6. Melikova M.F. Theory of the state and law. Baku, Maarif Publ., 1988, 383 p. (in Azerbaijani).
7. Nejefquliyev R.I. Adminitrative Law. Textbook. Baku, Ecoprint Publ., 2018, 568 p. (in Azerbaijani).
8. Khrapanyuk V.N. Theory of the state and law. Baku, MBM Publ., 2009, 247 p. (in Azerbaijani).
9. Derdiman Cengiz. İdare Hukuku. Alfa Aktuel Yayinlari, Ders Kitaplari, 2010, 598 p. (in Turkish).
10. Gözler Kemal. Ramazan Çağlayanın İdare Hukuku ve İdari Yargılama Hukuku İsimli Kitabı hakkınta eleştiriler. Bursa: Star Ajans LTD Publ., 2013, 190 p. (in Turkish).
11. Hatemi H., Medeni Hukuka Giriş, İstanbul, 2018, 212 s. (in Turkish).
12. Kabahatler Kanunu. Available at: https://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.5326.pdf (accessed: 14.01.2022)
13. Kemal Gözler. Hukuka Giriş. Bursa, 2020, 540 p. (in Turkish).

♦ **Zeynalova Gandab Mikayil -** Master of the Department of Constitutional Law of Baku State University (Azerbaijan). E-mail:qendabzeynalli8@gmail.com

14. Nohutçu Ahmet. İdare Hukuku – Ahmet Nohutçu ( Altın Seri). Ankara: Yayınevi: Savaş, 2016, 1216 p. (in Turkish).

15. Türk idare hukuku. Seçkin Yayıncılık, 2011, 663 p. (in Turkish).

16. Administrative Penalty Regulation. Available at: https://www2.gov.bc.ca/assets/gov/environment/research-monitoring-and-reporting/reporting/reporting-documents/environmental-enforcement-docs/administrative_penalty_facts_sheet.pdf (accessed: 14.01.2022).

17. Cane Peter. Administrative Law. Clarendon Law Series. Oxford University Press; 6 edition, 2016, 495 p.

18. Endicott Timothy. Admiistrative Law. Oxford University Press; 3 edition, 2015, 712 p.

19. Law of the People's Republic of China on Administrative Penalty. Available at: http://www. asianlii.org/cn/legis/cen/laws/apl269/ (accessed: 16.01.2022).

20. *Administrativnoe pravo Rossii: uchebnik.* 2 izd.pererab. i dop. pod red. L.L. Popova [Administrative Law of Russia. Textbook. 2-nd edition, rev. and suppl. ed. by L.L. Popov]. Moscow, Prospect Publ., 2015, 560 p.

21. Code of the Russian Federation on Administrative Offenses. Available at: http://www.consultant.ru/document/cons_doc_LAW_34661/ (accessed: 16.01.2022). (in Russian).

22. Konin N.M., Mamoruna E.I. *Administrativnoe pravo: uchebnik* [Administrative Law. Textbook]. Moscow, Yurayt Publ., 2015, 574 p.

**Зейналова Г.М.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.70-79**
**УДК: 342.9**

## Характеристика административного взыскания как правовой категории и его систематика

**Аннотация:** Исследуются вопросы, связанные с характеристикой административных санкций как правовой категории административных санкций и ее систематизацией. Отмечены мнения о понятии административного взыскания, правилах применения, целях применения. Были отмечены результаты анализа и сравнения.

**Ключевые слова:** административное наказание; административное правонарушение; административная ответственность; административный штраф; Кодекс об административных правонарушениях; физическое лицо; юридическое лицо.

## Библиография

1. Кодекс об административных правонарушениях Азербайджанской Республики [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46960 (дата обращения: 18.01.2022) (на азерб. яз.).

2. Абдуллаев А., Нагиев Ф. Административное право: учебник. - Баку: Ганун, 2008. – 800 с. (на азерб. яз.).

♦ **Зейналова Гандаб Микаил кызы** - магистр кафедры конституционного права Бакинского государственного университета (Азербайджан). E-mail:qendabzeynalli8@gmail.com

3. Абдуллаев А. Административное право (1-2 части): учебное пособие. - Баку: Ганун, 2005. – 376 с. (на азерб. яз.).

4. Алиев С.Ф. Административное право: учебник. - Баку: Изд-во ООО Леман Полиграфия, 2019. – 726 с. (на азерб. яз.).

5. Аскеров З.А. Конституционное право: учебник. - Баку: Изд-во Бакинского госуниверситета, 2011. – 760 с. (на азерб. яз.).

6. Меликова М.Ф. Теория государства и права. - Баку: Изд-во Маариф, 1988. – 383 с. (на азерб. яз.).

7. Наджафгулиев Р.И. Административное право: учебник. – Баку: Экопринт, 2018. – 568 с. (на азерб. яз.).

8. Храпанюк В.Н. Теория государства и права. – Баку: MBM, 2009. – 247 с. (на азерб. яз.).

9. Derdiman Cengiz. İdare Hukuku. Alfa Aktuel Yayinlari, Ders Kitaplari, 2010. - 598 s. (на турецком яз.).

10. Gözler Kemal. Ramazan Çağlayanın İdare Hukuku ve İdari Yargılama Hukuku İsimli Kitabı hakkınta eleştiriler. - Bursa: Star Ajans LTD, 2013. - 190 s. (на турецком яз.).

11. Hatemi H., Medeni Hukuka Giriş. - İstanbul, 2018. - 212 s. (на турецком яз.).

12. Kabahatler Kanunu. [Электронный ресурс]. Режим доступа: https://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.5326.pdf (дата обращения: 14.01.2022)

13. Kemal Gözler. Hukuka Giriş. - Bursa, 2020. - 540 s. (на турецком яз.).

14. Nohutçu Ahmet. İdare Hukuku – Ahmet Nohutçu ( Altın Seri). Ankara: Yayınevi: Savaş, 2016, 1216 s. (на турецком яз.).

15. Türk idare hukuku. Seçkin Yayıncılık, 2011. - 663 s. (на турецком яз.).

16. Administrative Penalty Regulation. [Электронный ресурс]. Режим доступа: https://www2.gov.bc.ca/assets/gov/environment/research-monitoring-and-reporting/reporting/reporting-documents/environmental-enforcement-docs/administrative_penalty_facts_sheet.pdf (дата обращения: 14.01.2022).

17. Cane Peter. Administrative Law. Clarendon Law Series. Oxford University Press; 6 edition, 2016. - 495 p.

18. Endicott Timothy. Admiistrative Law. Oxford University Press; 3 edition, 2015. - 712 p.

19. Law of the People's Republic of China on Administrative Penalty. [Электронный ресурс]. Режим доступа: http://www.asianlii.org/cn/legis/cen/laws/apl269/ (дата обращения: 16.01.2022).

20. Административное право России: учебник. 2-е изд., перераб. и доп. /Отв. ред. Л.Л.Попов. - М.: Проспект, 2015. - 560 с.

21. Кодекс Российской Федерации об Административных Правонарушениях. [Электронный ресурс]. Режим доступа: http://www.consultant.ru/document/cons_doc_ LAW_34661/ (дата обращения: 16.01.2022).

22. Конин Н.М., Маморуна Е.И. Административное право: учебник. - М.: Издательство Юрайт, 2015. - 574 с.